# Dahinin qayıdışı, qurtuluşun fəlsəfəsi

*Ulu Öndər zamanın fövqündə dayandı, vətəni Azərbaycanı dünyaya tanıtdı. Bu tarixi həqiqəti yaradan isə Heydər Əliyev oldu, onun fədakarlığı, dönməz mövqeyi, güclü iradəsi, qətiyyəti, dühası xalqın yoluna əbədi işıq saldı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsi haqqı, ədaləti, imanı, inancı, məhəbbəti, şəxsiyyəti, dəyanəti, mərdliyi ehtiva edir.*

XX əsrin 90-cı illərində ölkə çalxalanır, hər ağızdan bir avaz gəlirdi, erməni təcavüzü, separatizm, sui-qəsdlər, terror, qıtlıq, inflyasiya insanları təhdid edirdi. Qara buludların arxasından çıxan Günəşi xatırladan dahinin Azərbaycana gəlişi ruhun bədənə qayıdışıydı. Qayıtdı və xalqa nicat bəxş etdi. Yaxın keçmişin işğal və köçkünlük ağrıları, 1992-1993-cü illərin dərəbəylik, xaos, qıtlıq sindromu, yenicə əldə edilən müstəqilliyi itirmək təhlükəsi, vətəndaş müharibəsinin xofu, xalqın çarəsiz durumu, ölkəni bürüyən qaçqın və köçkün dalğası, çadır düşərgələri, törədilən terror və sui-qəsdlər, küçələrdə silahlı adamların dolaşması, yaşadığımız ağır dönəmlər keçmişdən nəticə çıxara bilmək üçün ən yaxşı ibrət dərsləridir. Ötən əsrin 90-cı illərində yetmiş il dünyaya hökmranlıq edən sovet imperiyasının çöküşü, milli azadlıq ideyalarının çiçəklənməsi, Bakı şəhərinin küçələrində müstəqillik arzusu ilə dinc nümayişlər keçirənlərin gülləbaran edilməsi, 20 Yanvar faciəsi, ərzaq dükanlarının qarşısında yaranan uzun-uzadı növbələr, çörək qıtlığı Azərbaycanı fırtınalı dənizdə yelkənsiz gəmi kimi naməlum istiqamətə aparırdı. Ermənistanın işğalı nəticəsində ata-baba yurdlarından didərgin düşən, yataqxanaların balaca otaqlarında, yarımçıq tikililərdə, zirzəmilərdə məskunlaşan keçmiş məcburi köçkünlərin taleyinə ağır zərbələr dəydi.

Yaşlı nəsil yaxşı xatırlayır, 1992-1993-cü illərdə humanitar fəlakət, dövlət müstəqilliyini itirmək, vətəndaş müharibəsi təhlükəsi, ölkənin parçalanması, anarxiya, separatçılıq Azərbaycanın başı üzərində qara bulud kimi günü-gündən daha da sıxlaşırdı. Azərbaycanı xəritədən silmək üçün düşmən qüvvələr birləşərək təcavüzü gündən-günə artırırdılar. İnsanlar naümid qalmışdılar. Azərbaycan şimaldan, cənubdan, qərbdən təhdid altına düşmüşdü, daxildə isə qeyri-qanuni silahlı dəstələr fəallaşmışdılar. Həmin vaxt hakimiyyətdə olanlar nə edəcəklərini bilmirdilər. İnsanlar cavabsız sualların məngənəsində sıxılırdılar. Azərbaycan dərin bir uçurumun kənarında, müstəqilliyini itirmək təhlükəsinin bir addımlığındaydı. Belə çıxılmaz bir durumda xalq öz oğluna, dahi siyasətçi, böyük şəxsiyyət, qətiyyətli iradə sahibi, lider bacarığı ilə dünyada tanınan, həmin dövrdə keçmiş SSRİ dövlətində yüksək dövlət postundan istefa verməyə məcbur edilən və çox böyük haqsızlıqla üzləşən Heydər Əliyevə müraciət etdi. Doğma xalqını və Azərbaycanı hədsiz məhəbbətlə sevən ulu öndər ikinci dəfə hakimiyyətə qayıtdı və çox gərgin fəaliyyəti nəticəsində bütün bəlalara, qarşıdurmaya, dövlət çevrilişi cəhdlərinə, haqsızlığa son qoydu. Ulu öndər Heydər Əliyev gecə-gündüz çalışaraq, hətta həyatını təhlükəyə ataraq Azərbaycanı dəhşətli fəlakətdən, uçurumdan xilas etdi. Haqlı olaraq xalq öz fədakar oğluna xilaskar adı verdi. 1993-1995-ci illər Azərbaycan tarixinin ən çətin, ən ziddiyyətli, dövlət çevrilişlərinə cəhd dövrü kimi tarixə və yaddaşlara yazılıb.

Vətəndaş həmrəyliyi yaradan, demokratik, hüquqi dövlət quruculuğu istiqamətində siyasi islahatlara başlayan, Azərbaycanın yeni konstitusiyasını yazan, mətbuat üzərində senzuranı ləğv edən ümummilli liderin çoxşaxəli və fədakar fəaliyyəti nəticəsində işıqlı bir yol açıldı. İnsan hüquq və azadlıqlarının qorunması üçün Azərbaycanda köklü islahatlar keçirildi. 1993-cü il noyabrın 24-də Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatlarda itkin düşən və qanunvericiliklə müəyyənləşdirilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunu və sosial müdafiəsini tənzimləmək məqsədilə qanun qəbul edildi. Həmin illərdə qəbul edilən qanunların xronologiyasına nəzər salanda bir daha aydın olur ki, Azərbaycanda dünyəvi dövlət modelinə keçməyə və həyatın bütün sahələrində inkişafa doğru inamlı addımlar atılıb. Ulu öndər hakimiyyətə gəldiyi ilk günlərdə deyirdi ki, o insanlar ki, sədaqətlidirlər, saf mənəviyyatla, amallarla yaşayırlar, xalqına, millətinə, torpağına xidmət edirlər, dövlətin qanun-qaydalarına tabe olurlar, bu qanun-qaydaları qoruyurlar və onların həyata keçməsinə çalışırlar, belə adamlar həmişə mənim silahdaşımdır. Dahi şəxsiyyət vətəndaş və silahdaş formulunu belə müəyyən edərək ömrünün sonuna kimi ona ləyaqət və şərəflə riayət etdi.

1993-cü il çox kəşməkeşli, ziddiyyətli, təhlükəli il kimi tarixin səhifələrində və yaddaşlarda qaldı. Həmin il iyun ayının 4-də Gəncə şəhərində silahlı üsyan baş verdi. İqtidarda olan Azərbaycan Xalq Cəbhəsinin sabitlik yaratmağa, üsyançıların qarşısını almağa sözün əsl mənasında bacarığı və səriştəsi çatmadı. Cəbhəçilərin hakimiyyəti nicat yolunu Heydər Əliyevdə gördülər. Naxçıvandan Bakıya gəlmiş Heydər Əliyev iyunun 13-də respublika Ali Sovetin növbədənkənar iclasında çıxış edərək dedi: "İyunun 4-də Gəncədə qanlı hadisələr baş vermiş, insan tələfatı, şəhərdə böyük dağıntılar olmuşdur. Bununla əlaqədar Gəncədə, ətraf rayonlarda və bütün Azərbaycan Respublikasında böyük gərginlik yaranmışdır və mürəkkəb vəziyyət mövcuddur. Mən bu hadisələrlə bağlı vicdanımın tələbi, cürbəcür təbəqələrdən olan adamların, Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin xahişi ilə Bakıya gəlmişəm. Mürəkkəb, ağır vəziyyətdən çıxış yollarının axtarılması, milli barışığın, həmrəyliyin təmin olunması prosesinə qoşulmuşam. Mən əvvəllər də demişəm, bir daha deyirəm, - Gəncədə qan tökülüb, cinayət törədilib, böyük faciə baş veribdir. Ancaq bunun dərinləşməsinə heç vəchlə yol vermək olmaz. Azərbaycanın bütün vətənpərvər insanlarının hamısı birləşib bu ağır vəziyyətdən uğurla çıxmağa çalışmalıdır. Çıxış yolu ancaq danışıqlar, qarşılıqlı anlaşma, sülh və barışıq vasitəsi ilə ola bilər. Güc işlədilməməlidir. Bir daha silah işə salınmamalıdır. Mənim fikrim budur. Mən vəziyyətdən çıxış prosesində bu prinsipləri əsas tutaraq iştirak edirəm. Bu günlərdə Azərbaycanın Prezidenti Əbülfəz Elçibəylə görüşlərimiz, söhbətlərimiz olubdur. Şəxsən fəaliyyətimin bu sahədə nə qədər səmərəli ola biləcəyini müəyyən etmək üçün Gəncə şəhərinə getmək qərarına gəlmişəm. Mən Gəncə şəhərinə gedib vəziyyətlə tanış olandan sonra gəlib təkliflərimi verə bilərəm".

1993-cü il oktyabrın 3-də xalqımız Heydər Əliyevi səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçdi. Bu seçkilər bütün Azərbaycan xalqının Heydər Əliyevə böyük ümidlər bəslədiyini, inandığını bir daha nümayiş etdirdi. Təsadüfi deyil ki, ulu öndərin həyat fəlsəfəsi, həyat düsturu dahilik işığına bürünüb, könüllərə xoş duyğular bəxş edib, qaranlıqları işıqlandırıb, çöhrələrdə bərq vurub. Dahi Heydər Əliyev uğur fəlsəfəsini belə izah edib: "Mən həyatda yalnız üç şeyə arxalanmışam: yaradanıma, zəhmətimə və bir də xalqıma!".

Prezident İlham Əliyev deyib: "Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı".

Ülu öndərin başladığı mühüm əhəmiyyərli işləri siyasi varisi İlham Əliyev çox qətiyyətli və fədakar fəaliyyəti ilə həyata keçirir. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü, milli maraqlara əsaslanan siyasət nəticəsində Azərbaycan güclü, dinamik inkişaf edən, yüksək beynəlxalq nüfuza malik dövlətə çevrilib. Ölkəmizdə sosial-iqtisadi infrastruktur müasir tələblərə uyğun yenidən qurulur, sabitlik və təhlükəsizlik təmin edilib. Xalqımız Prezident İlham Əliyevin siyasətini dəstəkləyir və müdafiə edir. Ümummilli lider Heydər Əliyevin müdrik, uzaqgörən, daxili və xarici siyasətini özünün siyasi kursu elan etmiş, Heydər Əliyev idarəçilik məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin məqsədönlü fəaliyyəti nəticəsində keçmiş Qarabağ münaqişəsinə son qoyuldu, uzun illər ərzində işğal altında qalan torpaqlarımız düşmən əsarətindən azad edildi. Tamamilə yer üzündən silinmiş Ağdamın, Füzulinin, Cəbrayılın, Zəngilanın və digər ərazilərimizin qürurunu özünə qaytarmaq, yeni bir Qarabağ və Şərqi Zəngəzur qurmaq uğrunda indi sözün əsl mənasında mücadilə başlanıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**